# Yengicə su anbarı 10 min hektar sahənin suvarılmasını tam təmin edəcək

Son illərdə ölkədə su ehtiyatlarından səmərəli istifadənin və su təsərrüfatı obyektlərinin idarə olunmasının təkmilləşdirilməsi, müasir tələblərə cavab verən meliorasiya və su təsərrüfatı obyektlərinin qurulması, eləcə də bu sahədə uçot və nəzarətin təkmilləşdirilməsi istiqamətində ardıcıl



tədbirlər görülür. Bununla yanaşı, son dövrlərdə müşahidə edilən qlobal iqlim dəyişikliyi, dünyada orta temperaturun yüksəlməsi, əsasən qonşu ölkələrdən daxil olan yerüstü su ehtiyatının azalması, digər tərəfdən, suya tələbatın artması məhdud su ehtiyatlarına malik olan ölkəmizdə su ehtiyatlarının artırılması və sudan səmərəli istifadə üçün təxirəsalınmaz tədbirlər görülməsini zəruri edib.

Prezident İlham Əliyevin "Yengicə su anbarının tikintisi haqqında" 2023-cü il 12 aprel tarixli Sərəncamına əsasən, ölkədə su ehtiyatlarının artırılması, əkinəyararlı torpaqların genişləndirilməsi, müasir təsərrüfatların yaradılmasının və əhalinin məşğulluğunun artırılmasının təşviqi üçün Qəbələ rayonunda Yengicə su anbarının tikilişi davam etdirilir.

Anbarın ümumi su tutumu 17,5 milyon kub, istifadə olunan həcmi isə 12,4 milyon kub nəzərdə tutulub. İki dağın arasında, çayın hövzəsində qurulacaq bəndin ümumi uzunluğu 449,5 metrə, hündürlüyü isə 45 metrə çatacaq. Bəndin üst hissəsinin eni 10 metr, su anbarının güzgü səthi isə 130 hektar təşkil edəcək.

Anbar tikilib istifadəyə verildikdən sonra 15 kəndin ərazisində yaşayan 3 minə yaxın fermer təsərrüfatının su təminatı tamamilə yaxşılaşacaq. Ümumilikdə su anbarı tikildikdən sonra Qəbələnin aran hissəsində 10 min hektar sahənin suvarılması tam təmin olunacaq. Bu isə həmin torpaqlarda məhsuldarlığı artırmaqla yanaşı, ildə 2-3 dəfə əkin aparmağa imkan verəcək.

Yengicə su anbarı texniki quruluşuna və yerləşdiyi relyefə görə ekoloji baxımdan digər göllərdən daha sərfəli və səmərəli olacaq.

Rayonda bütün çaylar başlanğıcını dağlardan götürdüyü üçün suyun miqdarı dağlara yağan qardan asılı olur. İsti keçən yay mövsümündə, təxminən bir ay müddətində Qəbələ rayonunun çaylarında su azlığı müşahidə olunur. Bu da suvarmanın istənilən səviyyədə aparılmasına imkan vermir. Ümumiyyətlə, Yengicə su anbarı tikildikdən sonra rayonda torpaqların ilboyu su ilə təminatında heç bir problem yaşanmayacaq.

"Qəbələdə belə bir su anbarının yaradılmasına çox ciddi ehtiyac var idi. Belə ki, kənd təsərrüfatına yararlı torpaq sahələrinin 20 min hektara yaxını suvarılan torpaqlardır. Qəbələdə bu torpaqların su təminatını yaradan çaylarımızın hamısı başlanğıcını dağlardan götürür. Onların birbaşa su təminatı demək olar ki, dağlardakı qar örtüyündən asılıdır. Buna görə də, iyul ayının ikinci yarısından başlayaraq avqust ayının sonuna qədər rayondakı çaylarda suyun səviyyəsi kəskin azalır və bu səbəbdən fermerləri istənilən səviyyədə su ilə təmin etməkdə çətinlik çəkirik. Yeni su anbarı bu çətinlikləri aradan qaldıracaq.

Yengicə su anbarının tikintisi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ilə Türkiyə şirkəti arasında bağlanmış müqaviləyə əsasən aparılır.

**"Qəbələ"**

# Ümumdünya Sağlamlıq günü

Hər il 7 aprel Ümumdünya Sağlamlıq günü kimi qeyd olunur. Bu tarix 1948-ci il aprelin 7-dən BMT-nin xüsusi agentliyi kimi yaradılan Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) fəaliyyətə başlaması ilə əlaqədardır. Belə ki, 1950-ci ildən başlayaraq hər il aprelin 7-si Ümumdünya Sağlamlıq günü ənənəvi olaraq qeyd edilir.

Məhz bu gün diqqəti əsas ictimai səhiyyə müəssisələrinə yönəltmək üçün qlobal bir imkandır.

ÜST-nin Avropa bürosu xüsusi tədbirlər keçirir, eləcə də siyasətçilər və digər təşkilatlar arasında müzakirələrin aparılmasına şərait yaradılır.

Eyni zamanda ÜST-nin prioritet hesab etdiyi sağlamlığa aid qlobal miqyasda vacib əhəmiyyət kəsb edən mövzular müzakirə olunur.

ÜST-nin hesablamalarına əsasən iqlim dəyişkənliyinin qarşısı alınmayan ekoloji səbəbinin yaratdığı xəstəliklərdən hər il dünyada 13 milyon nəfər həyatını itirir.

BMT-nin iqlim dəyişkənliyi konfransı və ya COP 29-un 2024-cü ilin noyabr ayının 11-dən 24-dək Bakıda keçiriləcəkdir. 29 rəqəmi həmin tədbirin sayca 29-cu olduğuna işarə edir.

Bundan əvvəlki tədbir COP-28 keçən il Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində baş tutmuşdur.

COP-29 bir sıra iqlim dəyişikliyi məsələlərini müzakirə etmək və danışıqlar aparmaq üçün dünya liderlərinin, hökumət rəsmilərini, alimləri, QHT-ləri və digər maraqlı tərəfləri bir araya gətirən böyük tədbir olacağı gözlənilir.

COP tədbirlərinin məqsədi, iqlim böhranını həll etmək Paris saziişinin tələbi olaraq dünyada karbon qazının miqdarını sənayeləşmədən əvvəlki dövrdə olduğu səviyyədə məhdudlaşdırmaq üzrə irəliləyişə nail olmaqdır.

COP-29 konfransı iştirakçı ölkələr üçün yeni öhdəliklər götürmək və iqlim böhranını həll etmək, konkret addımlar atmaq üçün bir fürsətdir.

Bunun möhtəşəm bir tədbir olması və Bakıya təxminən 70 - 80 min xarici qonaq gəlməsi nəzərdə tutulmuşdur.

Səhiyyə xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi, xəstəliklərin düzgün müalicəsinin aparılması 2030-cu ilədək qarşıda duran əsas məsələlərdən biridir.

Ümumdünya Sağlamlıq gününün məqsədləri sırasına bir sıra məsələlər daxildir.

Sağlamlıq qaydalarına düzgün əməl olunması, səhiyyə məsələlərinin həllində Dövlət orqanlarına kömək edilməsi, həkimlərin peşəkarlığının artırılması, düzgün qidalanma, idmanın və sağlam həyat tərzinin təbliği bundan başqa gənclər arasında sağlam vərdişlərin yayılması barədə maarifləndirmə də vacib işdir.

Sağlamlığa gedən yol sağlam həyat tərzindən keçir. Sağlam həyat tərzinin qorunması üçün pis vərdişlərdən siqaret, spirtli içki və narkotik maddələrdən imtina olunması, düzgün qidalanma , aktivlik, idmanla məşğul olmaq bir sıra sanitariya gigiyena qaydalarına riayət etmək, hər bir stresdən uzaq olmaq vərdişlərinə əməl olunmalıdır.

Ümumdünya Sağlamlıq günü sağlamlığın və səhiyyənin problemlərinə yönələn və planetin hər bir sakininin sağlamlığının qorunması və əminamanlığın qorunması üçün birgə fəaliyyət göstərməyə xidmət edən bir tədbirdir.

**Hikmət ABDULLAYEV,**
**Qəbələ rayon GEM.**

# Şagirdlərimizlə qürur duyuruq

Müstəqilliyimizin ilk illərindən başlayaraq davam edən təhsil islahatları bir daha göstərdi ki, ölkəmizdə təhsil sisteminin təhsili inlkişaf etmiş qabaqcıl ölkələrin təhsil sistemlərinin səviyyəsinə çatdırılması təhsilimizin qarşısında duran ən vacib prioritetlərdən biridir. Bu illər ərzində məktəblərimizin istər maddi-texniki, istər infrkstruktur, istərsə də təlim bazasının yaxşılaşdırılması ilə yanaşı, təhsilin bütün pillələrində idarəetmə və pedaqoji heyətin də peşəkarlığının yüksədilməsi hər zaman diqqət mərkəzində olmuşdur. Məhz görülmüş bu işlərin nəticəsidir ki, ildən-ilə şagirdlərin təlim nəticələri yüksəlir. Bu da buraxılış imtahanlarında və qəbul imtahanlarında özünü göstərir. 2023-2024-cü tədris ili Şəki - Zaqatala RTİ -nin tabeçiliyində olan təhsil müəssisələri üçün olduqca uğurlu olmuşdur. Belə ki, 03 mart 2024 -cü il tarixdə keçirilən XI siniflər üzrə buraxılış imtahanlarının nəticələrinə görə respublika üzrə maksimum ( 300 bal) nəticə göstərən 14 nəfər məzundan 6 nəfəri Şəki -Zaqatala RTİ -nin tabeçiliyində olan təhsil müəssisələrinin şagirdləridir. Bizim üçün xüsusilə sevindiricidir ki bunlardan 3 (üç) nəfəri: Elşən Yusibov - Həmzəli kənd tam orta məktəbin XI sinif şagirdi, Səidə Rəhimova-Nohurqışlaq kənd tam orta məktəbin XI sinif şagirdi və Lalə Xancanova- Qəbələ şəhər 4 nömrəli tam orta məktəbin XI sinif, Qəbələ rayonu üzrə təhsil sektorunun tabeçiliyində olan təhsil müəssisələrinin şagirdləridir.

Ümumilikdə 2023-2024-cü tədris ili üçün XI siniflərin buraxılış imtahanlarının nəticələri aşağıdakı kimi olmuşdur:

Tədris ili ərzində XI sinif şagirdlərinin ümumi sayı- 1072 nəfər.

Onlardan imtahanda iştirak edənlər -1058 nəfər

Üzürlü səbəbdən İştirak etməyən - 14 nəfər

300 bal toplayan - 3 nəfər
250-300 bal arası - 104 nəfər
200-300 bal arası - 250 nəfər
Hər 3 fəndən 0 bal toplayan - 5 nəfər



*Lalə Xancanova*



*Elşən Yusibov*



*Səidə Rəhimova*

**Ən yaxşı nəticə göstərən 10 məktəb**

Məmmədağalı kənd tam orta məktəb
Qəbələ şəhər 5 saylı tam orta məktəb
Nohurqışlaq kənd tam orta məktəb
Vəndam qəsəbə 1 saylı tam orta məktəb
Qəbələ şəhər 4 saylı tam orta məktəb
Əmirvan kənd tam orta məktəb
Həmzəli kənd tam orta məktəb
Nic qəsəbə 3 saylı tam orta məktəb
Aydınqışlaq kənd tam orta məktəb
Daşca kənd tam orta məktəb

Qeyd edək ki, tədris ilində rayonun ümumtəhsil məktəblərinin şagirdləri digər müsabiqə, olimpiada və idman yarışlarında da yüksək nəticələr göstərmişdir. Belə ki, cari tədris ilində IX,X,XI sinif şagirdlərinin iştirakı ilə Respublika fənn olimpiadalarının rayon və zona turları keçirilmiş və 13 nəfər şagird yüksək nəticə göstərərək respublika fənn olimpiadalarının final mərhələsinə VI, VII sinif şagirdlərinin iştirakı ilə respublika fənn müsabiqəsinin rayon turundan isə 96 nəfər şagird yarımfinal mərhələsinə vəsiqə qazanmışdır.

V sinif şagirdlərinin iştirakı ilə "Lutfizadə" məntiq olimpiadasının rayon mərhələsindən isə 20 nəfər şagird yarımfinala vəsiqə qazanmışlar.

29.03.2024-cü il tarixində isə Qəbələ şəhər 2 nömrəli tam orta məktəbində Şahin Hərbi idman oyunları keçirilmiş və Qəbələ şəhər 3 nömrəli tam orta məktəbin şagirdləri final mərhələsinə vəsiqə qazanmışlar.

Cari tədris ilində Bılıx kəndində yeni məktəb binasının tikintisi, Qəbələ şəhər 2, 4 nömrəli, Bayramkoxalı, Mamaylı, Mirzəbəyli kənd tam orta məktəblərində, şəhər 1 nömrəli körpələr evi-uşaq bağçasının, Bayramkoxalı, Nohurqışlaq kənd uşaq bağçalarında cari təmir işləri nəzərdə tutulmuşdur.

**Yaşar NƏZİROV,**
**Şəki -Zaqatala RTİ-nin Qəbələ rayonu üzrə təhsil sektorunun baş məsləhətçisi.**